Gün
27 avqust 2019
№ 149 (4047)
3
BAKI XƏBƏR

# Azərbaycanın beynəlxalq statusunun möhkəmləndirilməsində Mehriban Əliyeva faktoru...

***Mübariz Əhmədoğlu:** "Beynəlxalq müstəvidə Azərbaycanın təbliğində, mövqelərinin möhkəmlənməsində Mehriban xanımın rolu çox böyükdür"*

**Hər bir müstəqil dövlət xarici siyasətində milli maraqlarını ön planda tutur. Azərbaycan da xarici siyasətində milli maraqlara xüsusi önəm verir. Ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, təhlükəsizliyini qorumaq və bunları beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək başlıca məsələlərdən biridir.**

Eyni zamanda, Azərbaycanın milli maraqları ilə, həmçinin dövlətçilik maraqları ilə uyğun gələn ölkələrlə sıx əməkdaşlıq qurmaq, müttəfiqlik etməklə beynəlxalq sistemdə mövqeyini möhkəmləndirmək aparılan siyasətin tərkib hissəsidir. Azərbaycan Qərb və Şərqin qovşağında yerləşməklə mühüm strateji-coğrafi mövqeyə malikdir. Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm strateji istiqamətlərindən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsi və bu ölkələrlə əməkdaşlıq, tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin yaradılmasıdır. Bununla bağlı son illər bir sıra işlər görülüb, geniş, çoxşaxəli siyasət həyata keçirilir. Bu baxımdan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri böyükdür. Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmlənməsində Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolu danılmazdır. 2004-cü il mayın 10-da təsis edilən Heydər Əliyev Fondu fəaliyyətə başladığı gündən ölkə hüdudlarından kənarda müxtəlif sahələri əhatə edən bir sıra proqram və layihələr reallaşdırıb. Azərbaycanın dünyada tanıdılmasında fəal rol oynayıb və indinin özündə də oynayır. Bu yöndə yüksək idarəetmə məharəti, professionallıq göstərməklə effektiv nəticələr əldə edən Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin xaricdə təbliği istiqamətində də çox geniş fəaliyyət göstərir. Onun şəbbüsü ilə "İçərişəhər" tarixi memarlıq qoruğu və "Qobustan" qayaüstü abidələri Ümumdünya Mədəni İrs Siyahısına salındı. Mehriban xanımın səyi nəticəsində mədəni-mənəvi irsimizin əzəmətli abidəsi olan muğam YUNESKO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edildi. Dünyanın bir sıra aparıcı dövlətlərində Azərbaycan həqiqətlərinin beynəlxaq ictimayətə çatdırılması ilə bağlı Mehriban xanımın təşəbbüsü ilə keçirilən tədbirlər, dövlət rəsmiləri ilə keçirilən görüşlər bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bütün bu deyilənlərdən çıxış edərək, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsində Mehriban Əliyevanın rolunu ekspertlər necə dəyərləndirir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu Mehriban xanımın bu yöndə xidmətlərini konkret faktlarla əsaslandırdı: "Konkret olaraq Heydər Əliyev Fondu xristian katakombalarını təmir etdirdi. Bu minvalla xiristian dünyası ilə iş aparıb Azərbaycanı Avropaya təqdim etdi. Ümumdünya Kilsələr Şurası deyilən qurum var. Bu qurum əvvəl həm Dağlıq Qarabağ məsələsi, həm də qondarma "erməni soyqırımı" ilə bağlı Azərbaycan və Türkiyəyə qarşı qətnamə qəbul edirdi. Mehriban xanım xristian dünyası ilə iş aparandan sonra Ümumdünya Kilsələr Şurası Azərbaycanın əleyhinə qətnamə qəbul etməyib. Əksinə, müəyyən mənada ermənilərə başa salırlar ki, Azərbaycanla normal qonşuluq edin. Digər tərəfdən, Mehriban xanım uzun müddət parlamentdə ABŞ-la əlaqələrinin kuratoru olub. Bu gün ABŞ-Azərbaycan münasibətləri kifayət qədər üstün səviyyədədir. ABŞ-ın Azərbaycanla, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi stabil və davamlıdır. Həmçinin, strateji cəhətdən əsaslandırılmış mövqedir. Bir neçə ermənipərəst konqresmeni çıxmaq şərtilə, qalan bütün qurumlar Qarabağ məsələsində həmin mövqeyə əməl edirlər. Daha sonra Mehriban xanım Azərbaycan-Fransa münasibətlərinin kuratoru oldu. Məhz bundan sonra Fransa-Azərbaycan əlaqələri daha da genişləndi. Fransa Azərbaycana peyk satdı. Bunun sayəsində Azərbaycan Kosmos vasitəsilə bir sıra vacib informasiyalar əldə edir. Mehriban xanımın apardığı işin nəticəsi idi ki, Fransa kimi bir vaxtlar ermənipərəst mövqe tutan dövlət Azərbaycanla bu cür yaxın əlaqələr qurdu.



Təsadüfü deyil ki, Azərbaycan-Fransa iqtisadi əlaqələri bu gün ən yüksək səviyyədədir. Onun son Fransa səfərindən sonra artıq "Rotşild" Banklar Qrupu Azərbaycana gəlmək istəyir. Ona görə də beynəlxalq münasibətlər sistemi prizmasından yanaşdıqda Mehriban xanım müsəlman dünyasında yeganə xanımdır ki, bu qədər böyük uğurlar əldə edib. Bu baxımdan Qafqazda Mehriban xanım qədər nüfuzlu xanım lider görmürəm. Bir sözlə, beynəlxalq müstəvidə Azərbaycanın təbliğində, mövqelərinin möhkəmlənməsində Mehriban xanımın rolu çox böyükdür".

***Vidadi ORDAHALLI***